# “Ayrılarmı könül candan”



Ömürdən keçən illər hər kəsin həyatının çalarlarını ruha hopduraraq əsrlərə daşıyır. Bu baxımdan tarix ötüb keçən illərin sinxron yaddaşıdır. Qarşılaşdığımız, gördüyümüz və eşitdiklərimiz həyat məktəbidir. Bu gün bizim ən böyük amalımız belə simlər üzərində köklənib. Vətən müharibəsi başlayandan hamı müsəlləh əsgərdir. Hərə öz əməli ilə vətənə gərək olmağa, cəbhəyə, Ali Baş Komandana yardım etməyə çalışır.

Vətənin ağır günündə hamının bir zindana vurması lazımdır. Sentyabrın son günlərindən başlayan savaşda qubalılar da yaxından iştirak edirlər. Ali Baş Komandanın vətən çağırışından sonra yüzlərlə gəncimiz cəbhəyə gedərək düşməndən intiqam almağa yollanıb. Onların içində Ahıska türkləri də var.

Tarixin qanlı keçmişini xatırlasaq, orada ahıskalıların başına gətirilən müsibətlərin şahidi olarıq. Məlumat üçün bildirək ki, Ahıska türkləri 1944-cü ilə qədər Gürcüstanın Mesxeti bölgəsində yaşayıblar. Hələ 1918-ci ildə həmin bölgədə ərazi dəyişikliyi edilmiş və Ahıska türkləri Türkiyədən alınaraq Gürcüstanın ərazisinə qatılmışdır. İşgüzar ahıskalılar qısa zamanda gürcülərlə qaynayıb-qarışmışlar. Onu da qeyd edək ki, həmin ərazinin yaxınlığında yüzlərlə erməni ailəsi də yaşayırdı. Buna baxmayaraq, elə kəndlər var idi ki, bölgədəki ahıskalılar sayca digərlərindən üç-dörd dəfə çox idilər. Bu isə erməniləri narahat edirdi.

İstər Gürcüstanda yaşayanda, istərsə də Orta Asiyaya köçürüləndən sonra ermənilər türklərə qarşı olan alçaq niyyətlərindən əl çəkmədilər. Nəticədə Ahıska türklərinin həyatında ikinci bir faciə törədildi. Bu faciə ermənilərin əli ilə 1989-cu ildə Özbəkistanın Fərqanə şəhərində baş verdi. İki qardaş xalq arasında baş verən iğtişaşlar nəticəsində yüzlərlə insan qətlə yetirildi. Biz canı canımızdan olan Azərbaycana üz tutduq. Az bir zamanda azərbaycanlılara elə qaynayıb qarışdıq ki, bizi ayırmaq mümkün deyildi.

Bu gün ümumi düşmənimiz olan erməni işğalçılarına qarşı Vətən savaşında ahıskalılar da var. Süfrəsi başında əyləşdiyimiz vətənin qələbə payına bizim gənclərimiz də öz adlarını şərəflə yazırlar. O gün olsun ki, bütün ərazilərimiz işğaldan azad edilsin və bayrağımız Qarabağın hər yerində dalğalansın!

Biz yaşlı nəsil qələbədən sonra azad olunan torpaqlarda işləməyə hazırıq. Döyüşən oğullarımızı biz əvəz edərik. Təki qələbə bizimlə olsun. Hamı - ahıskalı, tat, ləzgi, qrız dəxli yoxdur, hamımız vahidik və bizim qürrələndiyimiz bir Azərbaycan var! Bir də “Qarabağ Azərbaycandır!” deyən dilimiz. Allah Ali Baş Komandanımızı, Ordumuzu qorusun!

***Səlimjan RUZMANOV.***
***Quba***

Azərbaycan.- 2020.- 6 noyabr.- S.10.